UOT 94; UOT 94(479.24)

ZAUR ƏLİYEV
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı
Azərbaycan Universitetinin müəllimi
https://orcid.org/0000-0003-4393-8894
zaur.aliyev@gmail.com

SSRİ-də ERMƏNİ TERRORU

DOI: https://doi.org/10.36719/2708-065X/107/81-85

Vaqondan qaçaraq çıxdım, ayaqlarım [məni çıxartdı] – yerdə çoxlu qan təbəqəsi var idi, səpələnmiş əşyalar, şikəst insanlar, qan, iniltilər. 12-13 yaşlı uşaq qara idman kostyumunda xizəkdə uzanmışdı - Qadın qanlı əllərini yelləyirdi. Baxmaq qorxulu idi...

Vladimir Dmitriev
Partlayan qatarı izləyən qatarın maşinisti

8 yanvar 1977-ci ildə Sovet İttifaqının paytaxtı Moskvada silsilə terror aktları baş verdi. Müxtəlif yerlərdə 40 dəqiqədən az fasilə ilə ard-arda üç partlayış baş verib. Daxili İşlər Nazirliyinin və DTK-nın bütün əməkdaşları həyəcan təbili çalıb. Şənbə gününü ovla keçirən Sov.İKP MK-nın baş katibi Leonid Brejnev təcili olaraq paytaxta yola düşdü. O dövrdə moskvalıların həyatı geniş yayılmış cinayətkarlığın kölgəsində qalmadı. "Terrorizm" anlayışı sovet xalqı tərəfindən müstəsna olaraq kapitalist ölkələrinə xas xüsusiyyət kimi istinad edilirdi.

Açar sözlər: Sovet xalqı, Ermənistan, Moskva, terror, metro, erməni ultramillətçiləri.

Giriş. Keçmişimizdə baş verənlərin real faktlara əsaslanaraq doğru-düzgün işıqlandırılması problemi bütün bəşəriyyəti düşündürən zəruri məsələlərdən biridir. Yəqin ki, ilk baxışdan bəzilərinə sadə görünən bir faktı, yəni hər hansı bir xalqın dövlətçilik mədəniyyət və mənəviyyat tarixi əslində onun ümumi tarixidir desək, yəqin ki, səhv etmərik. Bu mənada dünya istər Şərq, istərsə də Qərb tarixini, dövlət quruculuğumuzu, ərazimizə edilən təcavüzləri, xalqımıza qarşı törədilən soyqırımlarını, terrorları, deportasiyaları, bəşəriyyət əleyhinə cinayətləri, düşüncə və məfkurə keçmişimizi öyrənən hər kəs həmin böyük məcraya bu və ya başqa şəkildə baş vurmalıdır ki, araşdırılan problemlərdə reallığı üzə çıxara bilsin. Qeyd etməliyik ki, indiyə qədər tanınmış tarixçilərimiz Vətən tarixinə aid, məxsusi olaraq Qarabağ problemi ilə ilgili elmi-tədqiqat işləri aparmış, samballı əsərlər yazaraq onları geniş oxucu auditoriyasına təqdim etmişdir.

Lakin bütün bunlara baxmayaraq ermənilərin zaman-zaman ümumən türklərin, xüsusilə Azərbaycan xalqına qarşı törədilən insanlıq əlyehinə cinayətlərin sayı-hesabı o qədər ölçüyəgəlməzdir ki, onların hamısını təbii ki, nəşr olunan mənbələrdə tam əhatə etmək mümkün deyildir. Nəticədə belə bir vəziyyətin yaranması, yəni xalqımızın həyatında baş verən digər tarixi faciələrdən hələ də gənc nəslin eləcə də dünya ictimaiyyətinin lazımi səviyyədə məlumatı olmur. Düşünürəm ki, təbii olaraq belə bir zərurət yaranır ki, bu günün ziyalıları, alimləri tarixi fəlakətlərimizi yazmaq, təfsilatı ilə gələcək nəslə çatdırmaq üçün öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Bu hər bir türk övladının− azərbaycanlının ona görə vətəndaşlıq borcu olmalıdır ki, xalqın tarixi keçmişini, başına zorla gətirilən milli faciələri öyrənmədən, onun yaşamaq haqqını müdafiə etmədən və bu dəhşətli faciələri başqa xalqlara çatdırmadan yaşaması, fəaliyyət göstərməsi manqurtlaşmış həyat tərzi keçirməyə bənzəyir. Bəllidir ki, sovet dönəmində bu yönümdə elmi-tədqiqat işlərinin aparılması mümkünsüz olmuşdur. Çünki bu rejim hadisələri pərdələməklə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən insanlıq əleyhinə cinayətlər barədə məlumatsızlıq yaradaraq xalqımızın keçmişində baş verənləri üzə çıxarmamaq məqsədi daşımışdır ki, bunun da nəticəsində informasiyasızlıq şəraiti formalaşdırıldığından məkrli erməni siyasətindən xəbərsiz olmuşuq.

Problemə daha yaxşı aydınlıq gətirmək üçün, yəni seperatizmə, terrora, soyqirimlara və təcavüzlərə hazırlıq məsələlərini tədqiq etmək üçün dönə - donə tarixə müraciət etməyi zəruri hesab edirik. Ona görə də ermənilərin müxtəlif bölgələrdə istənilən vaxt toplanaraq seperatizm və soyqırımlar törətmək imkanları həmişə diqqətləində saxlanılmışdır. Bunu vacib edən amillərdən başlıcası "Böyük Ermənistan" barədə xülyaların reallaşdırılmasıdır. Təbii olaraq belə bir xülyanın gerçəkləşdirilməsində Çar Rusiyasının dəstəyinə nail olmaq istəyən ermənilər hər vasitə ilə ona qulluq göstərməyə çalışırdılar. Beləliklə də, heç vaxt dövləti və dövlətçilik tarixi olmayan, dünyanın müxtəlif bölgələrinə səpələnmiş, köçəri həyat tərzi keçirən ermənilər buna nail olmaq üçün bəşəriyyət əleyhinə cinayət yolu olan seperatizmi və terrorizmi seçdilər. Buna nail olmaq üşünsə strategiyanın ilkin mərhələdə nəzərdə tutulan gizli fəaliyyət planını reallaşdırmağa başladılar. Məhz həmin gizli fəaliyyətin nəticəsi idi ki, müxtəlif illərdə çoxsaylı erməni təşkilatlaqrı yaranmışdır. Bu təşkilatların yaranmasını etiraf edən Erməni müəllifi J.Sarkisyan hələ XIX əsrin 60-70-ci illərdə xeyli sayda erməni cəmiyyət və təşkilatlarının yarandığını açıq şəkildə qeyd edir.

Tarix. Ermənilərin psixologiyasında qan tökmə, günahsız insanları öldürmək bir milli iş kimi durur və onlar illər boyu türklərlər yanaşı gürcü, rus, fransız və digər millətlərlə yanaşı öz ermənilərini belə öldürmək halları çoxsaylıdır. Qeyd edim ki, Ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq, ermənilər terrorçuluq fəaliyyətlərini Avropa və ABŞ-la yanaşı, SSRİ ərazisinə də keçirdilər. Əslində buna səbəb SSRİ xüsusi xidmət orqanları tərəfindən maliyyələşdirilən və istiqamətləndirilən erməni terrorçularından bəzi Qərb ölkələrinin analoji şəkildə ruslara qarşı istifadə etməsi oldu. Çünki Qərb ölkələrinin xüsusi xidmət orqanları ASALA, PKK və digər terrorçu təşkilatların SSRİ xüsusi xidmət orqanları tərəfindən maliyyələşdirilməsindən xəbər tutmuşdular. Onlar ələ keçirilən bəzi erməni terrorçularını öz tərəflərinə cəlb edə və onları SSRİ-də analoji addımlar atmağa razı sala bildilər (Əliyev, 2022: 16-17).

"Digərlərinə də çatdırın ki, bizə yalnız qisas, qisas, bir daha qisas qalır!" Bu sözlər 1977-ci il yanvar ayının 8-də Moskvada metroda terror hadisəsi törədən erməni Zatikyana aiddir ."Sizin məni mühakimə etmək ixtiyarınız yoxdur, çünki rus və yəhudilərin idarə etdiyi imperiya hüquqi dövlət deyil! Bunu möhkəm yadda saxlamaq lazımdır". – deyən erməni terrorçu Zatikyan beynəlxalq ictimaiyyətin təzyiqini və təpkisini görməyən erməni terrorizminin bir üzvü idi.

Erməni terrorunun SSRİ dövründə həyata keçirdikləri ən böyük və dəhşətli hadisə 1977-ci il yanvar ayının 8-də Moskvada həyata keçirildi. Həmin dövrdə Moskvadakı terror aktı ilə bağlı SSRİ-də yayılan rəsmi məlumatlara görə, erməni terrorçular Akop Stepanyan, Zaven Baqdasaryan və Stepan Zatikyan tərəfindən Moskva metrosunun "İzmaylovskaya" və "Pervomayskaya" stansiyaları arasında, Bauman rayonundakı 15 saylı mağaza və oktyabr küçəsində 3 terror aktı həyata keçirilmişdir. Bu terror aktları nəticəsində 7 nəfər həlak olmuş, 37 nəfər isə yaralanmışdır (Ahmadov, 2021: 1).

Terror hadisəsinin təşkilatçısı Stepan Zatikyan 1966-ci ildə Yerevan Politexnik İnstitutunun tələbəsi olarkən rəssam Aykanuz Xaçaturyan və Şagen Artunyanla birgə "Erməni Milli Birlik Partiyası" yaratmışdılar. Tələbələrin yaratdığı bu qurumun əsas məqsədi Türkiyədən Ermənistan "torpaqlarının" geri alınması və müstəqil Ermənistan dövlətinin yaradılması idi. Bu qruplaşmanın gizli mətbəələri var idi və onlar"Paros" ("Fənər") qəzeti nəşr edirdilər.

Onlar "Rus şovinizmi"nə etiraz etmək, Yuxarı Qarabağ və Naxçıvanın Ermənistana verilməsi üçün siyahılar paylayırdılar".

Zatikyan 1968-ci ildə sovet rejimi əleyhinə təbliğat apardığına görə həbs edilmişdir. 1972-ci ildə həbsxanadan çıxmış və fəhlə kimi fəaliyyətə başlamışdır. 1975-ci ildə sovet vətəndaşlığından çıxmaq üçün ərizə vermiş, lakin buna nail ola bilməmişdir. O, Ermənistanın Rusiyadan ayrılmasını təbliğ edirdi.

O zaman cinayətkarların axtarışına Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) ən yaxşı müstəntiqləri cəlb olunmuşdur. Onların səmərəli fəaliyyəti nəticəsində bu gurultulu terror aktlarında nüfuzlu erməni partiya liderlərinin iştirakı faktı üzə çıxıb. Terror aktlarının törədildiyi yerlərdən götürülən partlayıcı maddə qəlpələri onların harada istehsal olunması və daha çox hansı şəhərlərdə satıla bilməsinə dair şübhəli şəhərlərin dairəsi barədə materiallar əldə etməyə imkan yaradıb. Həmin şəhərlər arasında da başda İrəvan dayanırdı.

Sonra terror aktlarının ukraynalılar və erməni millətçiləri tərəfindən törədilə bilmə ehtimalı ortaya çıxıb. DTK əməkdaşları tərəfindən Daşkənd aeroportunda sərnişinlərdən birinin əlində terrorçular tərəfindən istifadə olunan çanta ilə eynilik təşkil edən çanta diqqət cəlb edib. Araşdırmalar bu çantaların məhz İrəvanda tikildiyini ortaya çıxarıb. Və bu fakt axtarışlar dairəsini son dərəcə məhdudlaşdırıb, DTK əməkdaşlarının əsas diqqətinin Ermənistana yönəlməsinə səbəb olub (Əliyev, 2014: 53-65).

Beləliklə, aşkar olunan bombanın elektrik qaytanağı xüsusi elektrodla aparılıb ki, bu da yalnız hərbi sənaye kompleksi müəssisələrində istifadə olunur. Nəticədə məlum olub ki, terror qruplaşma üzvlərindən biri müdafiə sənayesi müəssisəsində işləyir. Bu ərəfədə terrorçu qruplaşma üzvləri yeni cinayət hazırladıqları zaman səhvə yol veriblər. Beləki Kursk vağzalına içərisində partlayıcı qurğu olan çanta qoyublar və bomba partlamadan əməliyyatçıların əlinə keçib. Və bu da DTK əməkdaşlarının sözügedən bandanın izinə düşməsi ilə nəticələnib. Çantaya istintaq baxışı nəticəsində sim və saat mexanizmi, həmçinin üzərində İrəvan nişanı olan göy olimpiya gödəkçəsi tapılıb. Belə ki, terrorçular çantanın partlayacağını zənn edib, öz şəxsi əşyalarını da çantada qoyublar.

Nəhayət Gürcüstan-Ermənistan sərhədində 55 saylı Moskva-İrəvan qatarının 3-cü vaqonundan şübhəli şəxs qismində saxlanılan və üzərində heç bir sənədi və şəxsi əşyaları olmayan, eyni zamanda əynində həmin göy olimpiya gödəkçəsindən olan 1949-cu il təvəllüdlü Akop Stepanyan saxlanılıb. O, saxlanılan zaman tələbə yoldaşı Zaven Baqdasaryanla (1954-cü ildə anadan olub) bir yerdə olub. Onlar Moskvaya səfərlərinin məqsədini polis əməkdaşlarına açıqlaya bilməyiblər. Onların hər ikisi İrəvana göndərilib. Sonradan Stepanyanın anası oğlunun çantasında bomba aşkarlayıb. Əməliyyatçıların onun evindən Moskvada törədilən partlayışlar zamanı istifadə olunan bombanın eynisini aşkar ediblər. Akop Stepanyan və Zaven Baqdasaryanın həbsindən sonra qrupun üçüncü üzvü Stepan Zatikyan da yaxalanıb (The Metro Explosion Trial, 2019: 1).

Moskva metrosunda 1977-ci ildə baş vermiş partlayış onu yenidən məhkəmə kürsüsünə çıxardı. İstintaqa görə, metro partlayışına o, rəhbərlik edib. Partlayışı həyata keçirən erməni terrorçular – fəhlə Akop Stepanyan və rəssam Zaven Baqdasaryan əməliyyata rəhbərliyin Stepan Zatikyan tərəfindən edildiyini bildirmişdilər. Terrorçuların dediyinə görə, Zatikyan ruslara nifrət etdiyinə görə, onları təhdid edərək bu əmələ vadar edib.

Terror hadisəsinin iştirakçıları olan Baqdasaryan və Stepanyan dindirmə zamanı bildiriblər ki, Zatikyan onlarla birgə həbsxanada olanda millətçilik ideyası təbliğ edirdi və deyirdi ki, erməni zülmünə görə rusları cəzalandırmaq lazımdır. XX əsrin əvvələrində erməni xalqının başına gətirilənlərdə rusları günahkar görən Zatikyan qisas almağın əsas yolunu Rusiya ərazilərində çoxsaylı patlayışlar törədilməsi və daha çox rusun öldürülməsində görürdü. Onun ətrafında olanlar qorxu altında Zatikyanın dediklərinə əməl edirdilər.

Moskva metrosunda partlayışdan sonra həmin cinayətkarlar 1977-ci il oktyabrın sonunda daha bir terror aktı törətməyi qərara alıb və bu məqsədlə Kursk vağzalından bilet alaraq Moskvaya gəlib. "Moskva İrəvanı" qatarına biletlər götürmüşlər. Qatara minən zaman vağzalın gözləmə zalında bombası ilə çantanı qoyub. Bir neçə dəqiqədən sonra yiyəsiz əşya sərnişinlərdən birinin diqqətini cəlb edir və hadisə yerinə gələn poislər orada məftillə və saat mexanizmi ilə işləyən dəhşətli nəticələr verə biləcək partlayıcını aşkar ediblər.

SSRİ hüquq müdafiəçiləri kimi qələmə verən bəzi şəxslər, o cümlədən Andrey Saxarov iddia edirdi ki, guya erməni terrorçuların günahı yoxdur və etmədikləri günahlarını zorla onların boyunlarına qoyurlar və bunun arxasında siyasi məqsədlər dayanır. Saxarov 1979-cu il yanvar ayının 30-da SSRİ KP MK Baş katibi L.Brejnevə ünvanladığı məktubunda yazırdı: "Biz bu işdə (terror aktında) məhkəmə səhvinə yol verildiyi və ya qəsdən baş verən hadisənin saxtalaşdırıldığı qənaətindəyik. Ona görə də məhkəmə prosesində aşkarlığın pozulduğunu və onun əsl həqiqəti üzə çıxara bilməyəcəyini düşünürük" (В Верховном суде Союза ССР, 1979:-6).

Ermənistan hakimiyyət orqanlarının – Ermənistan SSR KP MK-nın I katibi Karen Dəmirçiyanın və Ermənistan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri Yüzbaşyanın terrorçuları açıq şəkildə himayə etdikləri faktı üzə çıxdı. Adı çəkilən hər iki şəxs terrorçular üzərində aparılan istintaqa mane olmağa cəhd etdi. Buna nail olmayanda isə Dəmirçiyan açıq şəkildə SSRİ xüsusi xidmət orqanlarından Ermənistan vətəndaşları üzərində özbaşınalığı dayandırmağı və onlardan ölkə ərazisini tərk etməyi tələb etdi (Эндрю, Кристофер и Олег Гордиевский,1992:-45-49).

Saxarov iddia edirdi ki, partlayış zamanı isə Zatikyan İrəvanda olub. 1979-cu ildə keçirilən məhkəmədə Zatikyan terrorçular tərəfindən irəli sürülən bütün iddiaları rədd etmişdir. Lakin buna baxmayaraq məhkəmə onun qətlinə fərman vermiş və o, 1979-cu il yanvarın 24-də güllələnmişdir.

Nəticə. Ermənistan rəhbərliyi Moskvada törədilən terror aktlarının "müəllifləri"nin adlarının ictimaiyyətdən gizli saxlanılması üçün bütün vasitələrə əl atırdılar. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Karen Dəmirçiyan xüsusu canfəşanlıq göstərirdi. Sözsüz ki, Dəmirçiyanın sözü ilə mərkəzi mətbuat, televiziya susa bilməzdi. Amma buna baxmayaraq, o, Ermənistan mətbuatında terror aktları ilə bağlı bir cümlə olsun belə informasiyanın getməsinə imkan vermədi. Hətta Ali Məhkəmənin iclası əsasında çəkilmiş sənədli filmin Ermənistanda nümayiş etdirilməsinin qarşısı alındı. Bu hadisə Moskvada ilk böyük miqyaslı terror hadisəsi idi.

ƏDƏBİYYAT

1. Əliyev Zaur. Erməni milli kimlik psixologiyası və xəstəliyi. Bakı, Avropa nəşriyyat, 2022, s.114.
2. Naghi Ahmadov (2021). Hidden History – 1977 Terrorist Attacks in Moscow. - https://moderndiplomacy.eu/2021/01/20/hidden-history-1977-terrorist-attacks-in-moscow/ [22.10.2024].
3. Əliyev Z. Qarabağ: diaspor, soyqrım, terror. Bakı, "Avropa" nəşriyyatı, 2014, 450 s.
4. The Case Of The Explosion On The [Moscow] Underground (2019), March 1979 (52.1). - https://chronicle-of-current-events.com/2019/06/27/the-case-of-the-explosion-on-the-underground-march-1979-52-1/ [22.10.2024].
5. «Смотреть на это было страшно» Первый теракт в метро Москвы: как КГБ искал террористов и не дал им устроить другие взрывы. - https://lenta.ru/articles/2022/01/08/terakty/ [22.10.2024].
6. В Верховном суде Союза ССР (1979)// Известия, газета. -с.6
7. Эндрю, Кристофер и Олег Гордиевский. КГБ. История внешнеполитических операций от Ленина до Горбачева. Harper Collins Publishers, 1992, 546 с.

ЗАУР АЛИЕВ
Доктор философии по политическим наукам, доцент,
Институт философии и социологии НАНА,
Университет Азербайджан

АРМЯНСКИЙ ТЕРРОР В СССР

8 января 1977 года в Москве, столице Советского Союза, произошла серия террористических атак. Три взрыва произошли подряд в разных местах с интервалом менее 40 минут. Все сотрудники МВД и КГБ были подняты по тревоге. Генеральный секретарь ЦК КПСС Леонид Брежнев, проведший субботу на охоте, срочно выехал в столицу. В то время жизнь москвичей не была омрачена разгулом преступности. Понятие «терроризм» советскими людьми рассматривалось исключительно как характеристика капиталистических стран.

Ключевые слова: советские люди, Армения, Москва, террор, метро, армянские ультранационалисты.

ZAUR ALIYEV
Doctor of Philosophy in Political Sciences, Associate Professor,
ANAS Institute of Philosophy and Sociology, Azerbaijan Universty

ARMENIAN TERROR IN THE USSR

On January 8, 1977, a series of terrorist attacks struck Moscow city, the capital of the Soviet Union. Three explosions occurred in a row in different places, with an interval of less than 40 minutes.

All the employees of the Ministry of Internal Affairs and the KGB were raised on alarm. Leonid Brezhnev, General Secretary of the CPSU Central Committee, who spent Saturday hunting, urgently left for the capital. At that time, the life of Muscovites was not overshadowed by rampant criminality. The concept of "terrorism" was exclusively referred to as a characteristic of capitalist countries by the Soviet people.

Keywords: Soviet people, Armenia, Moscow, terror, metro, Armenian ultranationalists.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Ziyad Əmrahov, t.e.d. Məmmədağa Baxışov.